# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# IV.Morfologiya

## 55. Qoşma

# Qoşma

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq hallarında olan sözlərə qoşularaq müəyyən məna çaları əmələ gətirən köməkçi nitq hissəsinə qoşma deyilir: insan üçün, sənin üçün, sənin qədər, bizə dair. Qoşulduğu sözlə birlikdə cümlənin bir üzvi olur.

| Adlıq halda olan sözlərə qoşulanlar | Yiyəlik halda olan sözlarə qoşulanlar |
|---|---|
| ***Üçün, kimi, tək, qədər, ilə və s.***<br>Uşaq üçün<br>Uşaq kimi<br>Uşaq tək<br>Uşaq qədər<br>Uşaq ilə | ***1. Qədər, kimi, tək*** bənzətmə mənasında<br>**Sənin qədər səmimi**<br>2. ***İlə***- birgəlok mənasında<br>**Sənin ilə**<br>3. ***Üçün***- səbəb məqsəd mənasında<br>**Sənin üçün** |

| Yönlük halda olan sözlərə qoşulanlar | Çıxışlıq halda olan sözlərə qoşulanlar |
| --- | --- |
| 1. ***Qədər, kimi, -dək, -can*** məsafə bildirir:<br>**Evə qədər, evədək**<br>2. ***Sarı, tərəf, doğru, qarşı*** istiqamət bildirir:<br>**Evə tərəf, evə sarı** | 1. ***Əvvəl, sonra, qabaq, bəri*** zaman mənasında<br>**Səndən sonra**<br>2. ***Qeyri, başqa, savayı, ayrı, özgə-*** fəqləndirmə mənasında<br>**Səndən başqa**<br>3. ***Ötrü*** səbəb məqsəd mənasında<br>**Səndən ötrü** |

# Qoşma

Bəzi sözlər omonim olduğundan cumlədəki yerinə görə müxtəlif nitq hissələrinə aid ola bilir.

1. **tərəf, qarşı-** isim, qoşma. **Hər tərəf qaranlıq idi. Sənə tərəf gəlirəm.**
2. **Tək, doğru, yaxın, sarı-** sifət, zərf, qoşma. **Tək əldən səs çıxmaz. O tək gəldi. Sən mən tək tənhasan.**
3. **Sonra, qabaq, əvvəl-** zərf, qoşma. **Bu barədə sonra danışarıq. Bundan sonra məni axtarma.**